**Azərbaycan Respublikasının Auditorlar Palatası**
**Naxçıvan Muxtar Respublikasının Auditor Təşkilatı**

# AUDİTOR RƏYİ
# AUDITOR OPINION

**SERİYA NT №00047**

---

## "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti

Mən, Azərbaycan Respublikası Auditorlar Palatasının Naxçıvan Muxtar Respublikası Auditor Təşkilatının auditoru - Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş - 09 avqust 2017-ci il tarixli - SA/365 qeydiyyat nömrəli icazəyə əsasən fəaliyyət göstərən Vəliyev Xaqani Yəhya oğlu, "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti ilə bağlanmış M 5891 nömrəli 10 mart 2021-ci il tarixli müqaviləyə əsasən ASC-nin 2020-ci ili əhatə edən dövr üzrə maliyyə - təsərrüfat fəaliyyətini əks etdirən hesabat göstəricilərinin düzgünlüyünün auditini təqdim olunmuş hesabatlara əsasən apardım.

Audit "11" mart 2021-ci il tarixdə başlandı və "18" mart 2021-ci il tarixdə başa çatdırıldı.

Auditor yoxlamasına təqdim edilmiş sənədlərin düzgünlüyünə sifarişçi-təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

Mənim vəzifəm həmin sənədlərə əsasən aparılmış audit nəticəsində sifarişçinin maliyyə vəziyyətinə, maliyyə-təsərrüfat əməliyyatlarının qanuniliyinə, illik mühasibat hesabatları maddələrinin doğruluğuna, mühasibat uçotunun ümumi vəziyyətinə qiymət verməkdir və mən yalnız bu rəydə əks olunan mülahizələrimə görə məsuliyyət daşıyıram.

Mülahizələri düzgün formalaşdırmaq üçün kifayət qədər auditor sübutlarının toplanması məqsədi ilə mən qüvvədə olan audit standartlarının tələblərinə (müddəalarına) uyğun olaraq auditi planlaşdırmış və audit prosedurlarını yerinə yetirmişəm.

Audit zamanı təqdim olunmuş sənədlərdə əsas kimi götürülmüş təsdiqedici materiallar yoxlanılmış, habelə sifarişçi-təsərrüfat subyektinin təsdiq etdiyi uçot pirinsipləri qiymətləndirilmişdir.

Hesab edirəm ki, yerinə yetirilmiş audit prosedurları nəticəsində rəy vermək üçün kifayət qədər auditor sübutu toplamışam.

Qulluq borcumla əlaqədar apardığım yoxlama nəticəsində müəyyən etdim ki, mühasibat uçotu, illik balans qanuni göstərişlərə və nizamnamənin müddəalarına uyğundur.

Mühasibat uçotu baxımından illik balans hüquqi şəxsin əmlak, maliyyə vəziyyətini və gəlirliyinin faktiki vəziyyətini əks etdirir.

Qulluq borcumla əlaqədar apardığım yoxlama nəticəsində əldə etdiyim audit sübutlarına uyğun olaraq, "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyətinə gələcək dövrlərdə daha yüksək mənfəət əldə etmək üçün iqtisadi mexanizmlərdən istifadə etməklə sığorta fəaliyyətinin genişləndirilməsi və sərəncamında olan maliyyə aktivlərinin gəlirli sahələrə yönəldilməsi istiqamətində tədbirlər görməsini təklif edirəm.

Rəy "18" mart 2021-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə Naxçıvan Muxtar Respublikası Auditor Təşkilatında saxlanılır.

**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**Naxçıvan MR Auditor Təşkilatının auditoru :** **X.Y.Vəliyev**